Türküstan.- 2021.- 14-20 dekabr.- S.14.

***Zümrəd Məşəripova 1990-cı ildə Özbəkistan Respublikasının Xorəzm vilayəti Yenibazar rayonunda anadan olub. Zülfiyyə adına Dövlət Mükafatı laureatı. Özbəkistan Yazıçılar Birliyinin üzvü.***
***Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti II mərhələ magistri.***



## Yağış

Yağış pəncərəmi döyürdu tıq-tıq,
Açsam qucağıma atır özünü.
Uzaqdan darıxıb gələn kimi çox,
Pıçıldab-şıtıldab deyir sözünü.

Pəncərə açmadım, asmadım qulaq,
Tutmaq istəyirkən çəkdim əlimi.
Seltək gözyaşlara doludur bulaq,
Təmiz eləsəydi axı könlümü.

Dözmək çətin dalğa, fırtınalara,
Bişəfqət küləklər sərt-sərt qamçılar.
Yağış ağlayaraq yixilir yerə,
Pəncərəmdən damlayır ağ damcılar.

## Yadındadır

Başa bəla gəlsə bipərvə getdin,
Könlümdan dokulən qəm yadındadır?
Ağ və qara rəngə dolu dünyada,
Ağ səhər gözləyən dəm yadındadır?

Qaranlıq qəlbini işıqlandırmaq-çün,
Eşqdən yandırdığım şam yadındadır?
İkiyə bölünmüş bir ürək indi,
İki ürək idi cəm yadındadır?

## Vaxt

Dəniz uğuldayır dərinliyində,
Balıqlar üzürlər dayanmaq bilməy.
Və ya sahildən daha uzaqda,
Qayğısız uşaqlıq çalır qamış nəy.

Dənizin dibində yatır mərmilər,
Gətirmir xəyala göyə atmaq can.
Daşın dalğa isə təpə ləbində,
Daşlara başını vurur çalışqan.

* * *

Var idim
sən üçün yaranan,
Tar idim
səsi da daralan,
Dar idim
boynuna sarılan,
Yar idim
ömrünə quranan.
Sənəmlər
çox qırdı rəşqimi,
Ələmlər
bıtırdı aşqimi,
Bu belədir
Sən belə
tənbəlmi, fəhmimə?
Vecinə vermədin
qəzəbimə.
Toxundu
ağyarin gözləri,
Əydi bu qəddimi
sözləri,
Şayiələrə inanib
çaş oldum,
Yaşamağa güçsüz,
laş oldum,
Yarican
bağışla, üzülmə,
Hicran tiğ
vurma heç köksümə.
Altında sovrulub
kül ollam,
Əlində titrəyən
gül ollam.
De, kim də etmədi
xətalər?
Canin ət canima
ətalər!
Tutalım dargınlık
əlindən,
Axı səhv olmasın
yolundan.
Bənzəyıb
Məcnunu-Ləyliyə,
Səhrada qum keçsək
məvliyə...

Uyğunlaşdırdı: Rəhmət Babacan